*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 iyul 2017-ci il № 51 (2168) Qiyməti 25 qəpik


*Ön xətdən reportaj*

## Hamı bir amalın əsgəridir



Hər dəfə ön xətdə yerləşən hərbi hissələrə gedəndə, torpaqlarımıza keşik çəkən məğrur döyüşçülərimizlə tanışlıq ürəyimi qürurlandırır. Yenə də həmkarımla birlikdə "N" hərbi hissəsinə gedirik.

Yaşayış məntəqələrini keçdikdən sonra dağlı-dərəli yollar başlanır. Elə bil səhranın ortasında yaradılan bu hərbi hissə bir daha ölkə rəhbərliyinin orduya göstərdiyi yüksək diqqət və qayğının bariz nümunəsidir. Burada şəxsi heyətin nümunəvi xidməti üçün hər cür şərait yaradılıb.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Alxanlı kəndində atəş nöqtələrinin olmadığını sübut etdi

İyulun 6-da Müdafiə Nazirliyi, Xarici İşlər Nazirliyi, Respublika Baş Prokurorluğu və Füzuli rayonunun İcra Hakimiyyəti tərəfindən Azərbaycanda akkreditə olunmuş hərbi attaşelərin və xarici kütləvi informasiya vasitələri nümayəndələrinin (KİV) Ermənistan silahlı bölmələri tərəfindən atəşə tutulması nəticəsində iki dinc kənd sakininin həlak olduğu Füzuli rayonunun Alxanlı kəndinə səfəri təşkil edilib.

Bu ərazidə Azərbaycan Silahlı Qüvvələri bölmələrinin qərargahının və atəş nöqtələrinin olmadığını sübut edən dəlillər onlara yerində təqdim olunub.

Azərbaycan Müdafiə Nazirliyi bildirir ki, hərbi attaşelər və KİV nümayəndələri kənd ərazisində Silahlı Qüvvələrin bölmələrinin heç bir qərargahının və atəş nöqtələrinin olmadığına yerində əmin olublar.

Bu fakt bir daha təsdiq edir ki, Ermənistan silahlı bölmələrinin əsas hədəfi dinc Azərbaycan əhalisi olub. Ermənistan tərəfinin kənd ərazisində guya hərbi bölmələrimizin olması barədə yaydığı məlumat dezinformasiya və yalandır.

## Ermənistan ordusunun döyüşə hazırlıq vəziyyətinə gətirilən qüvvələrinə və taborun müdafiə rayonuna atəş zərbələri vurulub

### Düşmən ağır itkilərə məruz qalıb

Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən əldə olunan dəqiq məlumata əsasən, Ermənistan hərbi birləşmələri növbəti dəfə təxribat törətmək məqsədilə döyüşə hazırlıq vəziyyətinə gətirilib.

Ermənistan tərəfindən məqsədyönlü şəkildə yenidən planlaşdırılan təxribatın qarşısının və Alxanlı kəndində həlak olan dinc sakinlərin qisasının alınması üçün iyulun 7-də Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunun döyüşə hazırlıq vəziyyətinə gətirilən qüvvələrinə, xüsusilə də taborun müdafiə rayonunda yerləşən seçilmiş hədəflərinə dəqiq atəş zərbələri vurub.

Cəbhənin Füzuli-Xocavənd istiqamətindəki qoşunlarımızın həyata keçirdiyi bu fəaliyyət nəticəsində, ilkin məlumata görə, düşmənin tabor mərkəzinə daxil olan bölmələrin xeyli canlı qüvvəsi məhv edilib, bir neçə döyüş texnikası tamamilə sıradan çıxarılıb və digər hərbi infrastruktur obyektləri dağıdılaraq bərpa olunmaz vəziyyətə salınıb.

Dinc əhaliyə və şəxsi heyətə qarşı düşmənin istənilən fəaliyyətinin qarşısını dərhal almaq və onun atəş nöqtələrinə cavab zərbələri endirmək məqsədilə qoşun növləri və qismləri döyüş tətbiqi üçün hazır vəziyyətə gətirilib.

Hazırda bütün cəbhə boyu əməliyyat şəraiti Silahlı Qüvvələrimizin tam nəzarəti altındadır.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

# Türkiyənin ehtiyatda olan bir qrup yüksək rütbəli zabiti ilə Müdafiə Nazirliyində görüş keçirilib

*İyulun 5-də Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsində Türkiyədən qonaq gəlmiş ehtiyatda olan bir qrup yüksək rütbəli zabitlə görüş keçirilib.*



Müdafiə nazirinin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyev qonaqları Müdafiə Nazirliyinin rəhbərliyi adından salamlayaraq qeyd edib ki, iki xalq arasında əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi prosesinin təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub və Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilir.

Tədbirdə belə görüşlərin müntəzəm keçirilməsinin qabaqcıl təcrübə mübadiləsi, eləcə də gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi baxımından vacibliyi vurğulanıb, faydalı fikir mübadiləsi aparılıb və qarşılıqlı maraq doğuran məsələlər geniş müzakirə olunub.

Qonaqlar adından çıxış edən Türkiyə Ehtiyatda olan Zabitlər Təşkilatının sədri istefada olan korpus generalı Ərdoğan Karakuş səmimi qarşılandıqları üçün Müdafiə Nazirliyinin rəhbərliyinə öz minnətdarlığını bildirərək, qeyd edib ki, hər zaman olduğu kimi, bu gün də türk xalqı Azərbaycanla həmrəydir və bütün problemlərin həllinə dəstək verməyə hazırdır.

Sonda qonaqlarla xatirə şəkli çəkdirilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Silahlı Qüvvələrin Baş Qərargah rəisi Beynəlxalq Konfransda iştirak edib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov 6-7 iyul tarixlərində Birləşmiş Millətlər Təşkilatının mənzil-qərargahında keçirilən Baş Qərargah Rəislərinin ikinci Beynəlxalq Konfransında iştirak edib.

# Türkiyə KİV-ləri: İşğalçı Ermənistan uşaq qatilidir

Türkiyənin aparıcı kütləvi informasiya vasitələri Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndində törətdikləri ağır cinayətlərlə bağlı geniş məlumatlar yaymaqda davam edir. Yaşlı qadın Sahibə Allahverdiyeva (Quliyeva) və onun 2 yaşlı qız nəvəsi Zəhra Quliyevanın həlak olması barədə informasiyalar sosial şəbəkədə də sürətlə paylaşılır.

Anadolu Agentliyi, "Sabah" və "Hürriyyət" qəzetlərində, televiziya kanallarında və digər xəbər portallarında dinc sakinlərin amansızlıqla qətlə yetirilməsi, mülki obyektlərin dağıdılmasına dair informasiyaların əksəriyyəti "İşğalçı Ermənistan uşaq qatilidir" ifadələri ilə təqdim olunub.

**AZƏRTAC**

# Hamı bir amalın əsgəridir

(Əvvəli 1-ci səhifədə)

Hərbi hissənin nəzarət-buraxılış məntəqəsinə yaxınlaşıb, əsgərlərlə salamlaşırıq. Növbətçiyə gəlişimizin məqsədini deyib sənədlərimizi göstərdikdən sonra, onunla birlikdə qərargaha gedirik. Burada zabit Şövqü Məmmədovla görüşürük. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh olan zabit burada yaradılan şəraitdən, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığından ağızdolusu danışır. "Bu gün ölkəmizin hər bir bölgəsində yerləşən hərbi hissələrdə təmir və yenidənqurma işləri görülüb. Təbii ki, bu ilk növbədə Ali Baş Komandan cənab İlham Əliyevin orduya diqqətinin sübutudur. Şəxsi heyət ruhlanaraq daha da ürəklə xidmət edir. Döyüş postlarında da hər cür şərait var. Ona görə də xidmət yüksək səviyyədə təşkil olunur.



Əsgər postlda ayıq-sayıq dayanır, Vətən torpağını göz bəbəyi kimi qoruyur."

Döyüş postuna - Vətən keşikçilərinin yanına yola düşürük. Daşlı-çınqıllı dağ yolları ilə hərəkət edirik. Sürücümüz müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Fərid Nəbiyevdir. Beyləqan rayonundan olan Fərid neçə vaxtdır ki, ön xətdə xidmət edir. "Ön xətdə xidmət etmək ən qürurverici hissdir. 5 övladımın biri oğlandır. Gələcəkdə istərdim ki, o da zabit olsun. Çünki ən şərəfli iş, ən şərəfli peşə doğulduğun, böyüyüb boya-başa çatdığın Vətəni qorumaq, müdafiə etməkdir."

Təhlükəli və sərt döngəsi olan dağ yollarında avtomobili məharətlə idarə etməsi onun yetərincə təcrübəli olmasını deməyə əsas verir. Səmimi söhbət əsnasında orduya bağlılığının səbəbini soruşuram.

- Hər bir Azərbaycan vətəndaşının ürəyində bir nisgil var - Qarabağ, - deyir. - Mən də hamı kimi torpaqlarımızın düşməndən azad olunmasını arzu edirəm, bu yolda əlimdən gələni etməyə hazıram.

Gizir Rəfail Səmədov Şabran rayonundandır. 1 ildir ki, ordu sıralarındadır. 2015-ci ildə ön xətdə yerləşən "N" hərbi hissəsində Vətənə övlad borcunu yerinə yetirdikdən sonra hərbçi olmaq qərarına gəlir. Söhbətimiz zamanı öyrənirəm ki, onun hərbçi olmasında dayısı, şəhidlik zirvəsini fəth etmiş Milli Qəhrəman Samir Zülfüqarovun şərəfli döyüş yolu əsas rol oynayıb.

- Uşaqlıqdan hərbçi olmaq istəmişəm. Bu peşədə xalqıma sədaqətlə xidmət etmək əsas arzumdur. Hər zaman ordu sıralarında olmaq, hərbi geyim daşımaq əsas amalım olub. Orduya, hərbi formaya olan maraq, sevgi mənə ailədən aşılanıb. Uşaqlığım Azərbaycanın Milli Qəhrəmanı olan dayım Samir Zülfüqarov və onun silahdaşlarının qəhrəmanlıq hekayələrini dinləməklə keçib. Anam mənə tez-tez dayımdan danışar, onun kimi vətənpərvər, igid olmağımı arzu edərdi. Bu gün onun adına layiq xidmət etməyə çalışıram.

Post başçısı ilə söhbətimizdən sonra kiçik çavuş Adil Vəliyevlə görüşürük. Növbəni dəyişirdi. Elə fürsətdən istifadə edib onunla həmsöhbət oldum. Adil 2011-2012-ci illərdə "N" hərbi hissəsində əsgəri xidmətini başa vurduqdan sonra, hərbçi olmaq qərarına gəlib. Artıq 4 ilə yaxındır ki, burada manqa komandiridir.

Elə manqa komandiri ilə söhbət edirdik ki, mayor Aydın Osmanovun gəldiyini gördük. Bizimlə salamlaşdıqdan sonra gəlişimizə şad olduğunu bildirdi. Tabeliyindəki döyüş postlarını yoxlamaqdan gələn zabit yorğun görünsə də bizimlə həmsöhbət oldu.



- Döyüş postlarında xidmət etmək məsuliyyətlidir. Əsgərlərimiz də, biz də bunun fərqindəyik. Düşmən atəşkəsi vaxtaşırı pozur. İgid əsgərlərimiz onları layiqincə susdururlar. Biz düşməndən qorxmuruq. Onlara gücümüzü ötən ilin aprel ayında göstərdik. Azərbaycan əsgərinin mübarizliyini, igidliyini təkcə düşmən deyil, bütün dünya gördü. Hər an Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə torpaqlarımızı işğaldan azad edib, üçrəngli bayrağımızı başqa bölgələrə də sancmağa hazırıq.

Daha sonra döyüş növbəsindəki əsgərlə söhbət edirəm. Elə ilk ünsiyyətimizdən nikbin ovqatını hiss edirəm.

Bakı şəhərinin Nizami rayonundan xidmətə çağırılan Aslan Məmmədov 12 aydır xidmət edir. O, deyir ki, xidmətdə üzləşdiyi ilk çətinliklər artıq geridə qalıb. "Komandirlərimiz hər birimizə diqqət və qayğı ilə yanaşırlar. Dağ şəraitində xidmət etmək çətin görünə bilər. Lakin burada Vətənimizin müdafiəsində dayanmağımız üçün hər cür şərait yaradılıb. Mən və digər əsgər yoldaşlarım hər an Ali Baş Komandanın əmri ilə döyüşə atılmağa hazırıq."

Əsgər Ceyhun Məmmədov 7 aydır ki, doğulub boya-başa çatdığı Ağsu rayonundan ayrılıb. Vətənin keşiyində ayıq-sayıq dayanan əsgər deyir:

- Hər gün barıt qoxulu səngərdə döyüş növbəsinə çıxanda Mübarizi, Fəridi, Çingizi xatırlayıram. Onların simasında bütün şəhidlərimizin qisasının alınacağı günü səbrsizliklə gözləyirəm. Əlbəttə, o günə çox az qalıb. İnşallah, qısa vaxtda döyüş əmri verilər və biz də torpaqlarımızı azad edib ailəmizin yanına qələbə sevinci ilə qayıdarıq.

... Artıq geri qayıdırıq. Və burada tanış olduğum döyüşçülər ölkəmizin müxtəlif rayonlarından olsalar da, onları tək bir amal birləşdirir - Vətən torpaqlarını müdafiə etmək və Ali Baş Komandanımızın döyüş əmrinə hər an hazır olmaq.

**Baş leytenant Məhəmməd NƏSİRLİ, "Azərbaycan Ordusu", fotolar C.CƏFƏROVUNDUR**

# Azərbaycan sülhməramlılarının bir qrupu Əfqanıstana yola salınıb



*NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərmək üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 44 hərbi qulluqçusu plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yola salınıb.*

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 hərbi qulluqçusu, 2 hərbi həkimi və mühəndis-istehkam ixtisası üzrə 2 zabiti Əfqanıstandakı missiyada iştirak edir.



**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*6 iyul 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 142 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Noyemberyan rayonunun Dovex, Şavarşavan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Fərəhli kəndlərində, Berd rayonunun Ayqepar, Mosesqex, Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq, Muncuqlu kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Yarımca, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Sarıcalı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*7 iyul 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 130 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Voskevan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Fərəhli, Quşçu Ayrım, Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Ağbulaq, Muncuqlu kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Qaraqaşlı, Şirvanlı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# “Ermənistanın siyasi hakimiyyətinin məqsədi münaqişənin həllinə maneə yaratmaqdır”

Ermənistan silahlı qüvvələrinin bölmələrinin Füzuli rayonunun Alxanlı kəndini minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutması nəticəsində iki nəfərin, o cümlədən azyaşlının həlak olması və bir nəfərin yaralanması ilə əlaqədar Xarici İşlər Nazirliyi xarici ölkələrdəki nümayəndəliklərimizə tapşırıq verib ki, Azərbaycanın narahatlığını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırsın.

AZƏRTAC xəbər verir ki, bunu iyulun 5-də keçirilən mətbuat konfransında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.

H.Hacıyev bildirib ki, bu hadisə status-kvonun dəyişdirilməsinin vacibliyini bir daha sübut etdi. ATƏT-in Minsk qrupunun həmsədrlərinin regiona səfərindən dərhal sonra bu cür hadisənin baş verməsi göstərir ki, Ermənistanın siyasi hakimiyyətinin məqsədi münaqişənin həllinə maneə yaratmaq və gərginliyi artırmaqdır. Bununla əlaqədar Azərbaycanın xarici işlər nazirinin ATƏT-in Minsk qrupunun rusiyalı və fransalı həmsədrləri ilə telefon danışığı olub və xalqımızın narahatlığı onların diqqətinə çatdırılıb.

*Gənc zabitlərimiz*

# İctimai-siyasi hazırlıq diqqət mərkəzində

*Dünyada ordu quruculuğu elə bir spesifik sahədir ki, daim fasiləsiz inkişaf tələb edir. Xüsusilə dövlət müharibə şəraitində olduğu zaman bu tələb ikiqat artır. Bütün bunların fonunda Azərbaycan öz ordusunun gücünü, kadrların hərbi peşəkarlığını daim artırır, hərbi qüdrətini yüksəldir. NATO ilə sıx və səmərəli əməkdaşlığın əsas hədəfi də məhz ordu quruculuğu prosesini sürətlə təkmilləşdirməkdir.*



Ordu quruculuğunun əsas yükü peşəkar, müasir dünyagörüşlü və savadlı zabit heyətinin üzərinə düşür: Əsgərlərimizin döyüş və mənəvi-psixoloji ruhunun artırılması bilavasitə zabitlərdən asılıdır. Bunun üçün zabitlər də tarixi, siyasi, fəlsəfi, hüquqi biliklərə malik olmalıdırlar.

Ezamiyyətdə olduğum "N" hərbi hissəsində belə zabitlərdən biri - taqım komandiri leytenant Vəlicanov Elməddin Məhyəddin oğlu ilə tanış olmaq imkanı qazandım. O, hərbçi peşəsini seçim edərək həyatda ən böyük arzusunu həyata keçirib - 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. "Uşaqlıqdan ən böyük arzum hərbçi olmaq idi. Xoşbəxtəm ki, həyatımda ən böyük arzum reallığa çevrilib. Təhsil aldığım müddətdə kursantlar arasında birincilər sırasında olmağa çalışırdım. Hərbin sirlərinə mükəmməl yiyələndim. İndi isə məqsədim əldə etdiyim bilik və bacarıqları əsgərlərə aşılamaqdır. Hansı işdə çalışırsansa-çalış, təcrübə, səriştə həmişə insanın köməyinə gəlir. Hərbi xidmətdə də belədir. Şəxsi heyətə məşğələlər, dərslər keçərkən həm təhsil illərində qazandığım bilik və səriştə, həm də hərbi xidmətdə əldə etdiyim təcrübə köməyimə çatır. Çalışıram ki, keçdiyimiz təlim-məşqlər səmərəli olsun. Yalnız yüksək hazırlıqlı əsgər döyüşdə düşməni məhv etməyə və qələbə qazanmağa qadirdir".

Bu yaxınlarda rəhbərlik etdiyi əsgər qrupunun Silahlı Qüvvələr üzrə keçirilən "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu" yarışında birinci yer tutması ilə bağlı söhbətimi leytenant Vəlicanovla davam etdirdim. Zabit bildirdi ki, ictimai-siyasi hazırlıq ümumi hərbi hazırlığın spesifik bir sahəsidir: "İctimai-siyasi hazırlığı yüksək səviyyədə təşkil edə bilmək üçün zabit, dövlətimizin siyasi kursunu aşılamağı, ölkə rəhbərliyinin fəaliyyətini əsgərlərə düzgün təbliğ etməyi bacarmalıdır. Vətənə sevgi, düşmənə nifrət hissini formalaşdırmaq üçün vətənpərvərlik şüurunu oyatmaq tələb olunur. Bunun üçün isə, tarixi və siyasi mövzularda mütəmadi olaraq söhbətlər təşkil edilməlidir".

- Bu yaxınlarda rəhbərlik etdiyim əsgər qrupu Silahlı Qüvvələrdə birinci olmağı bacardı - deyə zabit bildirdi. - Əlbəttə, bu nailiyyət gərgin zəhmətin hesabına başa gəlib. Əsgərlərimizə hər addımda vətənpərvərlik və döyüş ruhu aşılayırıq. İgidlik göstərən, Vətən üçün şirin canından keçən qəhrəmanlarımızın da təbliğ olunması əsgərlərin vətənpərvər ruhda tərbiyəsində əvəzsiz rol oynayır. Vətəni sevən hər bir əsgər müstəqilliyin nə olduğunu dərk etməli, onu qorumağı bacarmalıdır. Vətən borcu, Vətən sevgisi hər kəsin ürəyində kök salmalıdır".

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"**

*Bu bölgənin yazı da, yayı da gözəldir. Gözəllikləri bəxş edən təbiət bu yerlərdən heç nəyini əsirgəməyib. Ölkəmizin mədəni həyatında da töhfələri çoxdur. Xalqımızın qədim adət-ənənələri şərəflə davam etdirilən bu yerləri Vətən övladları yadellilərdən həmişə mərdliklə müdafiə ediblər.*

*Gənc əsgərlərin hazırlığı*

# "Biz əsgərik"



Vətənsevər insanlar bu günümüz və gələcəyimiz naminə vətəndaşlıq borclarına ləyaqətlə əməl edirlər. Bu sırada öndə duranlar Vətənimizin müdafiəsində dayanan mərd oğullardır. Onların xidmətləri həmişə yüksək qiymətləndirilir. Təcrübəli zabit Fuad Ələkbərov da söhbət zamanı deyilənlərlə həmrəy olduğunu bildirir. Vətən uğrunda döyüşlərdə fədakarlıqlar, qəhrəmanlıqlar göstərən igidlərin əvəzsiz xidmətlərini diqqətə çatdırır.

Son illər ölkəmizin qüdrətli inkişafı, ordu quruculuğuna Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən göstərilən böyük diqqət və qayğı qələbəyə inam hissini daha da artırıb. Ali Baş Komandanın cəbhə bölgələrinə səfərləri, ordu rəhbərliyinin cəbhə bölgələrində həyata keçirdiyi tədbirlər hərbi qulluqçuların vətənpərvərlik hisslərini gücləndirməklə döyüş əzmini artırır.

Zabit söhbət zamanı ordu sıralarında gənc əsgərlərin hazırlığına ciddi fikir verildiyini önə çəkdi. Onların kifayət qədər hərbi biliklərə malik olduqlarını, ordu həyatına alışdıqlarını bildirdi.

Mayor Rəsul Yusifov gənc əsgərlərə nümunəvi xidmət üçün hərtərəfli şəraitin yaradıldığını qeyd etdi.

Məmməd Bağırov Bakı şəhərindən xidmətə çağrılıb, ali təhsillidir, qısa müddət ərzində atıcı ixtisasına yiyələnib. O deyir:

- Vətən oğullarının sücaətlərindən bəhs edən televiziya verilişlərinə baxmışdım. Arzusunda olmuşam ki, soydaşlarım kimi mən də cəbhə bölgəsində xidmət edim. Atalar doğru deyib ki, "niyyətin hara, mənzilin ora".

Mühəndis-istehkamçı ixtisasına yiyələnmiş Şarvan Qurbanzadə əslən Zəngilan rayonundandır. Doğma torpaqlarına tezliklə qayıdacaqlarına inam ifadə edən Sarvan Lənkəran Dövlət Universitetinin məzunudur. O deyir:

- Qürur hissi keçiririk ki, ordumuz Qafqaz regionunun ən güclü, qüdrətli ordusu hesab olunur. Artıq bir neçə gündür ki, xidmətimizi cəbhə bölgəsində davam etdiririk. Fəxr edirik ki, müstəqil dövlətimizə, xalqımıza xidmət edirik. İnanıram ki, bizə göstərilən etimadı doğruldacaq, doğma torpaqların işğaldan azad edilməsində iştirak edəcəyik.

Gənc əsgərlər sırasında idmançılar da az deyil. Onlar yeniyetməlik çağlarından idmanın müxtəlif növləri ilə məşğul olublar. İsmayıl Kərimov Yunan-roma güləşi üzrə respublika səviyyəli yarışların iştirakçısıdır. Bir neçə dəfə qaliblər sırasında olub. 2015-ci ildə Bakı şəhəri üzrə keçirilən yarışda birinci yerə layiq görülüb. Rövşən Rüstəmov da qaydasız döyüşlə məşğul olur. Müxtəlif yarışlarda iştirak edib. "Burda da idmanla məşğul olmaq üçün hər cür şərait var. Fiziki hazırlıq döyüş hazırlığının tərkib hissəsidir. Çalışacağıq ki, yarışlarda hərbi hissəmizin idman şərəfini qoruyaq. Əsgərlərdən Kamran Hacıyev, Əhməd İbrahimli və başqaları da silahdaşları kimi Vətənə sədaqətlə xidmət edəcəklərini qürurla dedilər. Hər biri qürurla deyir: "Mən əsgərəm!"

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Döyüş hazırlığının təmin edilməsi üçün

*Nəzarət-buraxılış məntəqəsində növbə aparan əsgər qərargaha məlumat verdikdən sonra hərbi hissənin ərazisinə daxil oldum. Səhərin erkən çağlarından səliqə-sahmanın hökm sürdüyü ərazidə hamı gündəlik xidmət qayğılarıyla məşğul idi.*

Çoxdan tanıdığım zabit Azər Ağayev bir qədər qayğılı göründü. Digər hərbi hissəyə ezam edilən təmir qrupu çoxməqsədli yüngül zirehli maşınların təmirini qısa zamanda həyata keçirmək barədə qrup rəhbərinə göstərişlərini verirdi.

- Əsas vəzifəmiz təminat işlərini yerinə yetirmək, həmçinin texnika və silahlarda üzə çıxarılmış nasazlıqları aradan qaldırmaqdır, - söhbət zamanı zabit Azər Ağayev dedi. - Buraya gətirilməsi mümkün olan texnikanı burada təmir edirik, gətirilməyəni isə mütəxəssislərimiz ezam edilərək hadisə yerində bərpa edib sıraya qoyurlar. Hazırda hərbi kollektivimizdə öz işini bilən və vəzifəsini məharətlə yerinə yetirən təcrübəli mütəxəssislərimiz var. Onlar döyüş növbəsi aparan bölmələrin köməyinə istənilən vaxt getməyə hazırdırlar.

"N" hərbi hissəsində təmirçilərin fəaliyyəti hərbi hissələrimizdə bilavasitə döyüş hazırlığının təmin edilməsinə yönəldilib. Əgər avtomobil və ya zirehli döyüş texnikası qarşıya qoyulan hərbi tapşırıqları yerinə yetirməyə imkan verməzsə, yüngül və ya ağır silahlarda nasazlıq yaranarsa, hərbi kollektivin döyüş qabiliyyəti də aşağı düşər. Ona görə də təmirçilər üzərlərinə düşən hər bir vəzifənin yerinə yetirilməsinə və bununla da hərbi hissələrimizin döyüş potensialının möhkəmlənməsinə öz töhfələrini verirlər.

Hərbi hissədə silah, zirehli texnika və avtomobillər, eyni zamanda xüsusi qurğular üzrə təmir qrupları var. Ehtiyac olduqda sifarişə əsasən müvafiq ixtisas üzrə mobil təmir qrupu bölmələrə yollanır və yerində təmir işlərini yerinə yetirir.

Onu da qeyd edim ki, son zamanlar hərbi hissə yeni və müasir avtomobillər, xüsusi təmir emalatxanaları, nəzarət-ölçü cihazları və digər maddi vəsaitlərlə təchiz edilib. Əgər vaxtilə alət və avadanlığın primitivliyi səbəbindən hansısa iş çətin görülürdüsə, bu gün müasir avadanlıqların vasitəsilə mütəxəssislər həmin işi rahatlıqla, dəqiq və tez bir zamanda başa çatdırırlar.

İndiki texnika və avadanlıqlar həm də daha geniş imkanlara malikdir. Bu maşınların keçid imkanları böyük, idarə edilməsi isə asandır. Bütün bunlar təmirçilərə öz işlərini yeni səviyyədə və daha keyfiyyətlə görməyə imkan verir.

- Təmir qruplarının hamısı bacarıqlı, öz işini bilən mütəxəssislərdən ibarətdir, - mayor Rövşən Məhərrəmov dedi. - Təcrübəli zabitlərimiz, gizirlərimiz, müddətdən artıq hərbi qulluqçularımız var. Onlar texnika və silahların üzərində təmir işinin sirlərini mükəmməl mənimsəyiblər. Son zamanlar mütəxəssislərin müddətdən artıq hərbi qulluqçu vəzifələrinə gətürülməsi xidmətin və işin səmərəliliyini xeyli artırıb.

Əvvəllər adi əsgərlər öyrədilərək mütəxəssis kimi təmir işində istifadə edilirdilər və bir müddət sonra isə xidmətləri



başa çatdığına görə ordu sıralarından tərxis edilirdilər. Yenilərini mütəxəssis kimi yetişdirmək vaxt və əlavə zəhmət tələb edirdisə, indi müqavilə prinsipi ilə ordu sıralarına cəlb edilən müddətdən artıq hərbi qulluqçular mütəxəssis kimi silah və texnikanın üzərində səylə çalışırlar. Onlar ilbəil öz təcrübələrini artırırlar ki, bu da ümumi işin xeyrinədir.

- Onlar burada həm də ixtisaslaşırlar, - zabit Azər Məmmədov bildirir. - Akkumulyatorçu, elektrik, qaynaqçı və sair peşələrə yiyələnirlər. Bu da təmir işlərinin tez və keyfiyyətli yerinə yetirilməsinə şərait yaradır. Belə mütəxəssislərdən baş gizir Murad Əhmədovun, müddətdən artıq hərbi qulluqçular Pərviz Məmmədovun, Əlizamin Əhmədovun, Vüqar Şumalovun, Amil Bəkirovun adlarını çəkərdim. Təmir işlərinin səmərəli yerinə yetirilməsi belə mütəxəssislərin bilik və bacarığı hesabına mümkün olur.

Zabit Məmmədovla avtomobil parkına baş çəkdik. Burada da təmirçilər "N" hərbi hissəsindən gətirilmiş UAZ markalı avtomobildə aşkar edilmiş nasazlıqları aradan qaldırmaqla məşğul idi. Mühərrikdə nasazlıq olduğundan mütəxəssislər artıq onu sökmüşdülər və lazımi detalların yenilərilə əvəz edilməsilə məşğul idilər, bir sözlə, maşının üzərində gərgin iş gedirdi.

- Avtomobili qısa zamanda təmir edib sıraya qaytaracağıq, - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş İmadəddin İsmayılov dedi.

Öyrənirəm ki, əslən Qubadlı rayonunun məşhur Dəmirçilər kəndindəndir. Artıq 20 ilə yaxındır ki, ordu sıralarında xidmət edir və avtomobil texnikasını mükəmməl mənimsəyib. Onunla birlikdə UAZ-ın üzərində işləyən əsgər Xəyal Mahmudov da müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusudur, avtomobil təmirilə burada 2014-cü ildən məşğul olur. Texnikaya uşaq yaşlarından göstərdiyi maraq onun peşə seçimində önəmli olub.

Parkda xüsusi ayrılmış sahədə işləyən digər bir müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, manqa komandiri kiçik çavuş Arif Zeynalovla tanış oluram. Onu bacarıqlı dülgər kimi təqdim edən zabit Məmmədov həm də vurğuladı ki, kiçik çavuş məsuliyyətli, nümunəvi xidmətilə seçilən hərbi qulluqçudur. Söhbət zamanı məlum oldu ki, hərbi hissədə onun qardaşı da xidmət edir. Gizir Müşfiq Zeynalov taqım komandiridir. Komandirlər onun da xidmətindən razılıq hissilə danışdılar.

Ümumiyyətlə, hərbi hissədə nümunəvi xidmətilə seçilən hərbi qulluqçular, təmirçi mütəxəssislər çoxdur. Onlardan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Pərviz Məmmədov, Xəyal Kərimov, Vüqar Şumalov və başqalarını göstərmək olar. Təmirçilərin qazandığı uğurlarda onların da zəhməti az deyil.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

# Gənclər hərbi xidmətə yüksək əhval-ruhiyyə ilə yollanırlar



Çağırışçı gənclərin həqiqi hərbi xidmətə təntənəli surətdə yola salınması cəbhə bölgəsi olan Tərtərdə də ənənə halını alıb.

AZƏRTAC xəbər verir ki, Tərtər şəhərinin mərkəzi meydanında gənclərin hərbi xidmətə yolasalma mərasimi keçirilib. Çağırışçı gənclər əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzi meydanındakı abidəsi önünə çiçək dəstələri düzərək, xatirəsinə ehtiramlarını bildirib, Heydər Əliyev Mərkəzində dahi rəhbərin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon bölməsinin rəisi Ruslan Quliyev, Qarabağ müharibəsi veteranı, "Azərbaycan bayrağı" ordenli Nizami Heydərov, əsgər atası Sahib Həsənov və başqaları çıxış edərək, gəncləri hərbi xidmətə yola düşmələri münasibətilə təbrik ediblər. Natiqlər çıxışlarında ölkəmizdə ordu quruculuğunda qazanılan uğurlardan danışıb, gənclərə Vətənin layiqli əsgəri olmağı, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmağı tövsiyə ediblər.



Çağırışçılar Azərbaycan Ordusuna, Vətənə xidmət etməyə yola düşdüklərindən qürur duyduqlarını ifadə edərək, ən böyük arzularının işğal altındakı torpaqlarımızı düşmən tapdağından azad etmək olduğunu bildiriblər.

Gənclər müqəddəs "Qurani Kərim"ə və Dövlət bayrağımıza ehtiramlarını bildirərək, yüksək əhval-ruhiyyə ilə hərbi hissələrə yola düşüblər.

*Ordu və cəmiyyət*

# “Fəxr edirəm ki, Azərbaycan Ordusunun zabiti olmuşam...”

Türk şairi Nazim Hikmətin bir misrasını xatırlayırıq: "Mən bir ceviz ağacıyam, göyərmişəm insanların yaddaşında". Yaddaşlarda yaşamaq hər kəsə qismət olmur. Dum-duru ömür yaşayanların, ömrü Vətən üçün, xalq üçün yaşayanların, son nəfəsinəcən "Vətən!" - deyənlərin, "Xalq!" - deyənlərin ömrü ömürlərə köçür, tarixin cığırdaşı olur. Cəlilabadda doğulub boya-başa çatan Niyaz Ələsgərov da belə ömür yaşayır.

Niyazın Vətən sevgisi ürəyimizi telləndirdi, duyğularımızı coşdurdu, düşüncələrimizin səhər yelinə döndü. Atası hərbçi olub. Hərbi mundirə sevgi ondanmı yaranıb Niyazda? - hərbçi olmağı qərara alıb. Bu istəyin təşnəsi olub Niyaz. Bu istəyi yaşayacağı illərin - ömrünün ağ işığı bilib. Bu istək ötəri istək deyilmiş. Zabit olmaq, torpaqlarımızın müdafiəsində dayanmaq - bu, murazıydı, amalıydı...



Tariximizə də mükəmməl bələddi, ədəbiyyatımızın, incəsənətimizin də vurğunudu. Azərinin ifasında "Yol ver türkün bayrağına" mahnısını ruhunun laylası bilir, vətənpərvərlik mahnılarını dinləməkdən doymur. "Xoşbəxt atayam ki, oğullarım da bu ruhun daşıyıcılarıdı..." - deyir...

Geniş dünyagörüşlə, müqayisəyəgəlməz bənzərsiz Vətən sevgisiylə, könül xoşluğu verən düşüncələriylə ruh qardaşı bildiyimiz (və qürurlandığımız!) istefada olan baş leytenant, I qrup Qarabağ müharibəsi əlili Niyaz Ələsgərovun məktubunda vətəndaş heysiyyəti var. Məktubda azərbaycançılıq var, Azərbaycana, Vətənimizə qədərsiz sevgi var...

**"Azərbaycan Ordusu"**

Zamanı qabaqlamaq qüdrətimiz olmasa da ayların tez keçməsini arzulayırdıq. Xidmətə başlamaq, torpaqlarımızı işğaldan azad etmək istəyimiz yerə-göyə sığışmırdı. Pilot olmaq istəyirdim, motoatıcı oldum. Sevdim bu ixtisası. Ali hərbi təhsilə yiyələndim. Leytenant rütbəsi ilə taqım komandiri kimi Tərtərdə hərbi xidmətə başladım. 1997-ci ildə. Vətənə sevgisi qədər də düşmənə nifrəti olanlardı əsl Vətən oğlu. Ata öyüd-nəsihətiylə belə böyümüşdüm. Kursant olanda torpaqlarımızın işğalı da məni varımdan yox eləyirdi. Xocalıda törədilənləri xatırlayırdıq, ölümdən can qurtarmaq istəyənlərin ömrünə çökən ölümləri xatırlayırdıq, yolda-izdə donanları xatırlayırdıq, Bağanış Ayrımda, Meşəlidə, Ağdabanda yananları xatırlayırdıq. Zabit kimi xidmətə başlayanda bunları əsgərlərimə də deyirdim.

Düşmən atəşkəsi pozurdu. Hər dəfə hücumların, həmlələrin qarşısını alırdıq. Düşmən adsız yüksəklikdən uzaqlaşdırılmayınca belə həmlələr, hücumlar davamlı olacaqdı. Yuxarı komandanlığın tapşırığıyla qrup yaradılmalı idi. İstər döyüş hazırlığıyla, istərsə də mənəvi-psixoloji hazırlığıyla fərqlənən əsgərləri seçdik. Bizi təlimatlandırdılar, biz də əsgərləri təlimatlandırdıq.

Əsgərin komandirinə ehtiramı, ona inanması döyüş ərəfəsində də, döyüşdə də mühüm amildi. Mən komandirlərimə inandığım səviyyədə əsgərlər də mənə inanırdı, komandirim mənə güvəndiyi səviyyədə mən də əsgərlərə güvənirdim.

Adsız yüksəkliyin alınması bizə tapşırılmışdı. Gecələr qarşıdakı dərəyə yaxınlaşırdıq. Əmr belə idi. Qələbə ovqatı vardı əsgərlərdə, xof yoxudu.

Düşmənlə aramızda 50-60 addımlıq məsafə vardı. Gecə saat 12 radələriydi. Komandirin əmriylə bir azdan həmlə edəcəkdik. Düşmən duyuq düşübmüş. Qəflətən atəşə tutulduq. Atəş altında olsaq da, kapitan Zaur Məmmədovun əmri ilə həmləyə keçə bildik. Kim həmlə edirdi, kim müdafiə olunurdu - döyüş o qədər gərginiydi ki, bunu ayırd etmək mümkün deyildi. Düşmənin də ağır texnikaları döyüşə qoşuldu, bizim ağır texnikalar da. Bir neçə saatdan sonra məlum olacaqdı ki, 70-ə qədər düşmən məhv edilib...

Sol əlimin bir barmağı yaralandı. Sarıdım. Əsgərlərin sırasındaydım - döyüşürdüm...

Əvvəl sol ayağım, sonra sol qolum yaralandı. Özüm sarıdım, döyüşü davam etdirdim. Yaralandığımı hiss eləmirdim. Səmimiyyətimə inanın, Vətən vardı, Vətənə görə döyüşüydü, bir də qələbə istəyi vardı.

Qəflətən Ruslanın səsini eşitdim:

- Komandir, yaralandım.

Cəsarətli əsgəriydi. Onu döyüşdən çıxartmağı qərara aldım. Çıxartdım da. Nəfəs dərməyə macal tapmamış pulemyot gülləri ayağımın yuxarı nahiyəsini dağıtdı.

Məni hospitala çatdırdılar. İlk yardım göstərildi, ilk əməliyyat aparıldı. Komandirimizin göstərişi ilə məni Mərkəzi Hərbi Hospitala təxliyə etdilər. Onda komandirimiz polkovnik (indi general-leytenantdı) Kərim Vəliyevin kəlmələrini yaşam məlhəmi bildim: - Təşəkkür edirəm, leytenant Ələsgərov, cəsarətinə görə. Xalqımızın adına layiq zabitsən.

Və qoluma bağladığı saatı bu gün də ən əziz xatirə kimi əzizləyirəm. Mərkəzi Hərbi Hospitalda da onun mənə qayğısını son nəfəsiməcən unutmaram. Ayağımı itirməməyim, yaşamağım mənə qədərsiz sayğısının nəticəsidi. Qürurlanıram ki, indi general-leytenant olan Kərim Vəliyevin dəyərləndirdiyi zabit olmuşam. Onun zabitlərə, ümumən hərbçilərə sayğısından məni yoluxmağa gələn zabitlərimizə, əsgərlərimizə çox danışmışam, bu gün də danışıram. Son nəfəsiməcən danışacam da. Bir örnək kimi.

Qədəm atıb yeridiyimi görəndə yaşamağımın, yeriməyimin səbəbkarı olan komandirimin necə sevindiyini unutmaq mümkünmü? Azərbaycan komandirinin, öz zabitinə belə sayğılı münasibətini ordumuzun mənəvi dəyəri bilirəm.

Atamın hospitalda dediklərini də heç zaman unutmaram. "Üzün ağ olsun, oğul", - dedi və əlləri saçlarımda gəzişdi.

İki oğlum var. Nihat 10, Fərid 7 yaşındadı. Onları torpaqlarımızı işğaldan azad etmələri üçün böyütmürəm. Onları böyüdürəm ki, işğaldan azad ediləcək torpaqlarımızı kişi kimi qorusunlar.

Aprel döyüşlərində evdə qərar tuta bilməzdim. Döyüşə getmək istəyirdim. Döyüşməyə sağlamlığım imkan verməsə də getmək istəyirdim. Döyüşənlərə güllə çatdırmaq, “sizin yanınızdayıq” demək üçün. O qələbə ordumuzun gücünü təsdiqlədi. Nə danım, qələbə sonluqlu o döyüşdə mən də iştirak etmək istərdim...

Hərbi xidmətdə olan zabitlərimizi də, əsgərlərimizi də qardaşım bilirəm. Onların Vətən sevgisini gözlərinə nur, ürəyinə təpər, dizinə taqət bilənlərdən biri də mənəm. Əsgər bilir ki, döyüşdə ondan, onun səngərdaşından yayınan güllə Vətənə dəyir. Əsgər Vətənə güllə dəyməsin deyə vuruşur. Belə vuruşmuşuq, belə vuruşurlar, sülh danışıqları baş tutmasa, əsgərlərimiz belə vuruşacaq!.. İstiqlal savaşında Şükrü Paşanın vəsiyyəti olub: "Düşmən sərhədlərimizi keçəndən sonra ölsəm məni dəfn etməyin, qoy ətimi itlər yesin, düşmən sərhədlərimi keçməmiş ölsəm, sabunum, kəfənim çantamdadı". Bu amalla döyüşənlərə, Vətəni bu amalla qoruyanlara məğlubiyyət yoxdu. Əsgərlərimizin amal ruhu bu işıqlı düşüncənin zərrəsidi...

"Azərbaycan Ordusu" qəzetində bir məqalə oxumuşdum: "Şuşaya aparan yollar görünür" Əsgərlərimiz bu yollardan keçib Böyük Qələbəyə gedəcək. Həm də yaxın vaxtlarda. Cıdır düzündə onların əlini sıxacağım, bağrıma basacağım günün həsrətindəyəm...

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevin dediyi kimi, Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır. Ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Fəxr edirəm ki, belə dövlətin vətəndaşıyam, belə ordunun zabiti olmuşam!..

**Niyaz ƏLƏSGƏROV,**
**I qrup Qarabağ müharibəsi əlili**

# İşğalçı ölkənin növbəti təxribatı

## Hərbi attaşelər və xarici KİV nümayəndələri Füzuli rayonunun Alxanlı kəndində olublar

*Düşmən iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndi istiqamətində növbəti təxribat törətdi. Təxribatın hədəfi isə kəndin dinc sakinləri oldu. İnsanlığa sığmayan bu əməlin qurbanı üç günahsız dinc sakin oldu. Aldıqları mərmi yaralarından 50 yaşlı Sahibə Quliyeva və onun iki yaşlı nəvəsi Zəhra Quliyeva öz evlərinin həyətində həlak oldu. Bir nəfər yaralandı. Silahlı Qüvvələrimizin təmas xəttində düşmənlə üzbəüz mövqelərdə yerləşən bölmələrinin cavab tədbirləri nəticəsində düşmən susduruldu.*



### Xarici ölkələrin nümayəndələri Alxanlıda

İyulun 6-da Azərbaycandakı xarici səfirliklərin hərbi attaşeləri, ölkəmizdə akkreditasiya olunmuş media nümayəndələri Alxanlı kəndinə gediblər. Onların bu səfərini Müdafiə Nazirliyi, Xarici İşlər Nazirliyi, Respublika Baş Prokurorluğu və Füzuli Rayon İcra Hakimiyyəti birgə təşkil etmişdilər.

Alxanlılar onu da yaxşı bilirlər ki, Ermənistan silahlı birləşmələrinin təxribatlarını Azərbaycan Ordusunun bölmələri heç vaxt cavabsız qoymur, şiddətli cavab atəşilə düşməni hər dəfə susmağa məcbur edir. Amma həmin axşamüstü...

- Yoldaşım Hamayılla kartof vardı, onu çıxardırdıq, - Mətləb Quliyev deyir: - Gördüm ki, mərmi başımızın üstündən fışıldaya-fışıldaya keçib, qardaşımgilin həyətinə düşdü. Dedim, Hamayıl, qardaşım Salmangilin evini vurdular. Balaca körpəyə, qadınlara atəş açmaq insanlığa sığası şey deyil.

Həlak olanlar Alxanlı kənd qəbiristanlığında dəfn ediliblər. Ancaq düşmənin yenə təxribat törədə biləcəyi səbəbindən mərhumların yas mərasimi Alxanlı kəndində deyil, doğma yurdlarından didərgin salınmış soydaşlarımızın məskunlaşdığı Zovucuq-5 qəsəbəsində keçirilib. Qəlpə yarası almış 1965-ci il təvəllüdlü Sərvinaz Quliyeva isə təcili hərbi hospitala çatdırılaraq əməliyyata götürülüb. Hərbi həkimlərimizin səyilə qadının həyatını xilas etmək mümkün olub.

Hərbi attaşelər və media nümayəndələri öncə Müdafiə Nazirliyinin hərbi hospitalında oldular, düşmən mərmisinin qəlpəsindən ağır yaralanmış Sərvinaz Quliyevaya baş çəkdilər. O, minaatan mərminin partlaması nəticəsində sinəsindən, qolundan və ayağından qəlpə yarası alıb.

Palatada qonaqlar qarşısında Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev qeyd etdi ki, düşmən cəbhəboyu kəndləri daim atəşə tutur, dinc insanlar qətlə yetirilir. Onun sözlərinə görə, dinc sakinlərin hədəfə götürülməsi terrorçu Ermənistan rejiminin qaniçən mahiyyətini nümayiş etdirir.

### Hədəf dinc sakinlər, uşaqlardır

Əliyalın insanlara divan tutmaq, qocalara, qadın və uşaqlara qarşı vəhşiliklər törətmək, metrolarda, avtobuslarda terror aktları həyata keçirmək insani simalarını itirmiş erməni faşistlərinin çoxdankı adətidir. Meşəlidə, Xocalıda, Qaradağlıda düşmənin törətdiyi qırğınlar zamanı da dinc sakinlər hədəfdə olmamışdımı? Xocalıda erməni hərbçiləri 106 qadını, 63 uşağı amansızlıqla qətlə yetirmişdilər. Ermənilər əllərinə keçən soydaşlarımıza heç vaxt rəhm etməmişlər. Bu ölkədə bütün dünyanın qınadığı terroru dövlət səviyyəsində himayə edirlər. Alxanlıda baş vermiş qanlı hadisə də buna sübutdur. Bu cinayətkar əməlləri törədən ermənilər gec-tez ədalət məhkəməsi qarşısında cavab verəcəklər.



Atəşkəs barədə razılıq imzalandıqdan sonra da düşmən dəfələrlə təmas xəttinə yaxın yaşayış məntəqələrimizdə dinc sakinləri hədəfə alır, atəşə tutur. 2011-ci il martın 8-də erməni snayperin Ağdam rayonunun işğal altındakı Şıxlar kəndi istiqamətindən açdığı atəş bir azərbaycanlı uşağın - Orta Qərvənd kənd sakini, 2002-ci il təvəllüdlü Bədəlov Fariz Arif oğlunun həyatına son qoymuşdu.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin statistikası acınacaqlıdır: düşmənin törətdiyi vəhşiliklər nəticəsində 193 azərbaycanlı uşaq qətlə yetirilib. 61 uşaq itkin düşüb, 27-si əsirlikdən qayıtmayıb. 1994-cü ildə atəşkəs rejimi elan olunmasına baxmayaraq, 33 azərbaycanlı uşaq erməni terrorunun qurbanı olub. Onlardan 14-ü həlak olub, 19-u yaralanıb. Alxanlı kəndinin balaca sakini - iki yaşlı Zəhra da onlardan biridir.

Beyinləri Qaregin Njdenin faşist ideyaları ilə zəhərlənmiş erməni millətçilərinin, zabit və əsgərlərinin əsl siması budur. Onlar üçün insani dəyərlər yalnız beynəlxalq təşkilatların gözünə kül üfürmək üçündür. Onlar hər şeyi öz maraqlarına uf demədən qurban verir, cinayət və vəhşiliklərdən çəkinmirlər. İki günahsız insanın qətlə yetirilməsi növbəti dəfə bunu sübuta yetirir.

Səfər iştirakçıları Alxanlı kəndinin qəbiristanlığında torpağa tapşırılmış körpə Zəhranın və onun nənəsinin məzarını ziyarət etdilər, ürək ağrıdan mənzərəni gözlərilə gördülər. Zəhranın qəbrinin üzərinə qoyulmuş qanlı məsum çöhrəsi adamın ürəyini dağlayır. Yəqin ki, qəbiristana gəlmiş hər kəs o anda düşünürdü: ermənilər bu günahsız körpəyə necə qıydı?

### Düşmənin iftirası ifşa olundu

Alxanlıdakı qanlı hadisədən sonra ermənilərin hərbi rəhbərliyi məlumat yaydı ki, guya onlar bizim bölmələrin hücum fəallığının qarşısını almaq məqsədilə, Silahlı Qüvvələrimizə qarşı cavab tədbiri görərək "Alxanlıdakı atəş nöqtəsini" susdurublar.

Düşmənin növbəti dəfə Gebbelssayağı yalan uydurduğunu insidentin qurbanlarının hərbçilər deyil, dinc sakinlərin olması da sübuta yetirir. Məgər evinin həyətində Sahibə Quliyeva və onun iki yaşlı nəvəsi Zəhra döyüş postumu qurmuşdular?

Digər tərəfdən, bu, o deməkdir ki, düşmən məqsədyönlü şəkildə dinc sakinləri atəş hədəfinə çevirib. Mülki vətəndaşlara qarşı sözün həqiqi mənasında terror həyata keçirib.

Hadisə yerində olmuş hərbi attaşelər və jurnalistlər bir daha düşmənin yalan məlumatlarla beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədinin şahidi oldular.

Müdafiə Nazirliyinin bildirdiyi kimi, hərbi attaşelər və KİV nümayəndələri kənd ərazisində Silahlı Qüvvələrin bölmələrinin heç bir qərargahının və atəş nöqtələrinin olmadığına yerində əmin oldular.

Bu fakt bir daha təsdiq edir ki, Ermənistan silahlı bölmələrinin əsas hədəfi dinc Azərbaycan əhalisi olub. Ermənistan rəsmilərinin kənd ərazisində guya hərbi bölmələrimizin mövcudluğu barədə yaydığı məlumat dezinformasiya və yalandır.

Pakistan səfirliyinin hərbi attaşesi Seyid İmran Əli jurnalistlərə qısa açıqlamasında bildirdi: "Biz Alxanlıya gələrək hadisə yerini öz gözlərimizlə gördük, insanlarla görüşdük. Ermənilərin açdığı atəş nəticəsində dinc insanların - balaca Zəhranın və onun nənəsinin qətlə yetirilməsi ciddi narahatlıq doğuran faktdır".

Kənd sakinləri də düşmənin uydurduğu məlumatı eşidib heyrətlənirdilər: bu qədər həyasızlıq, şərəfsizlik olarmı? Hər bir azərbaycanlının qürur və güvənc yeri olan Azərbaycan Ordusu dinc sakinləri heç vaxt təhlükə altında qoymaz!

Düşmənin növbəti təxribatından qəzəblənmiş kənd sakinləri üzlərini ilk növbədə xarici qonaqlara tutaraq azərbaycanlıların öz torpaqlarında yaşadığını, buna baxmayaraq işğal edilmiş torpaqlarımızda düşmənin belə qanlı təxribatlar törətdiyini, beynəlxalq təşkilatların yol verdiyi ikili standartlardan bezdiklərini dedilər, ya sülh yolu ilə torpaqlarımızın azad ediləcəyini, ya da hər kəsin silaha sarılaraq qüdrətli Azərbaycan Ordusu ilə çiyin-çiyinə işğal edilmiş ərazilərimizi azad edəcəklərini vurğuladılar.

### Ermənilərin daha bir uydurması

Yeri gəlmişkən, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik



iyulun 5-də Alxanlı kəndi istiqamətində qoşunların qarşıdurma xəttində olub. Alxanlı kənd ərazi nümayəndəsi İlham İsrafilov bizə bildirdi ki, ATƏT rəsmisi ön xəttə gedərək müşahidə aparıb. Sonra o, Alxanlı kəndində qanlı hadisənin baş verdiyi yerə gəlib, bir sözlə, vəziyyətlə yerində tanış olub. Onu da qeyd edək ki, ATƏT-in Minsk Qrupunun müşahidəçiləri həmin ərazidə dəfələrlə monitorinq aparıblar və hərbi bölmələrimizin yerlərini çox yaxşı bilirlər.

Yeri gəlmişkən, insidentin baş verdiyi gün, iyulun 4-də Füzuli rayonunun Aşağı Veysəlli kəndi yaxınlığında qoşunların təmas xəttində ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri monitorinq keçiriblər. Həmin gün axşam isə ermənilər məlum təxribatı törədiblər. Üstəlik bəzi erməni KİV-ləri yenə həqiqətdən uzaq məlumatlar yayıblar ki, guya monitorinq zamanı Azərbaycan tərəfi ATƏT-in nümayəndələrini özünün ön mövqelərinə çıxartmayıb. Bununla onlar dünya ictimaiyyətinin diqqətini törədilmiş vəhşilikdən yayındırmağa cəhd göstərmişlər.

### Bəs əslində hadisə necə olub?

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı söhbətində vəziyyətə aydınlıq gətirdi: "Monitorinqdə iştirak edən nümayəndələrin hər hansı nöqtəyə çıxmasını nə Azərbaycan, nə də Ermənistan tərəfi müəyyənləşdirir. Əvvəlcədən özlərinin planlaşdırdığı və dəqiqləşdirdiyi mövqeyə çıxmağı ATƏT-in Minsk Qrupunun səhra köməkçisi həll edir. Həmin mövqeyə çıxmamışdan qabaq hər iki tərəfdən iştirak edən nümayəndələr öz aralarında radio rabitəyə girirlər, sonra vizual görüntü olur. Beləliklə, tərəflər təsdiq edirlər ki, müəyyən edilmiş nöqtələrə çıxıblar. Yalnız bundan sonra Ermənistan və ya Azərbaycan tərəfi yox, onlar özləri monitorinqi baş tutmuş hesab edirlər. Əslində Ermənistan tərəfinin bu hərəkəti Azərbaycanın deyil, beynəlxalq qurumların gördüyü işə kölgə salmaq, beynəlxalq ictimaiyyətin diqqətini vacib məsələlərdən yayındırmaq cəhdidir.

Yəni, əslində, ATƏT-in Minsk Qrupunun nümayəndələrinin də təsdiq etdiyi kimi, monitorinq qrafikə uyğun şəkildə keçirilib və insidentsiz başa çatıb. Bütün bunlar göstərir ki, təxribat, yalan, iftira Ermənistan rəsmilərinin fəaliyyət üslubudur.

Jurnalistlər üçün keçirdiyi mətbuat konfransında polkovnik Vaqif Dərgahlı düşmənin Alxanlı təxribatı ilə bağlı onu da bildirdi ki, Ermənistan rəsmilərinin bu cür əməllərinin qarşısı qətiyyətlə alınacaq. "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bəyan edir ki, baş verə biləcək hər hansı hadisə ilə bağlı bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür."

Yada istər-istəməz ötən ilin aprelində təmas xətində baş vermiş hadisələr düşür. Həmin ərəfədə də düşmən qarşıdurma xətti boyunca təkcə Azərbaycan Ordusunun ön mövqelərini deyil, həm də cəbhəyanı kənd və qəsəbələrimizi müxtəlif çaplı silahlardan, minaatanlardan, artilleriya qurğularından səhər-axşam atəşə tutur, insanlara, evlərə xətər yetirirdi. Düşmənin, həmin təxribatından sonra Azərbaycan Ordusunun ön xətt bölmələri hərbi əməliyyat nəticəsində neçə-neçə yüksəkliyi, işğal altında olan yüzlərlə hektar ərazini azad etdi. Doğrudanmı, Ermənistan rəhbərliyi Azərbaycan Silahlı Qüvvələrinin nəyə qadir olduğunu növbəti dəfə yoxlamaq qərarına gəlibmiş?..

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

Hərbi təhsil

# Hərbi təhsildə müasir dərs

**Şahrza AĞAYEV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının dosenti**



Silahlı Qüvvələrdə kadr hazırlığı səviyyəsinin yüksəldilməsində hərbi pedaqoji prosesin keyfiyyətinin artırılması başlıca amillərdən biridir. Son illər Silahlı Qüvvələrin Hərbi Akademiyasında bu məqsədlə bir sıra elmi, pedaqoji və metodik tədbirlər həyata keçirilir, hərbi-pedaqoji prosesdə təlimin təşkili forması olan dərsin ənənəviliyi və müasirliyi ilə bağlı əməli işlər görülür. Kursant və dinləyicilərin dərslərdə fəallığı müşahidə olunur, təhlillər aparılır, müvafiq nəticələr çıxarılır. Bu cəhətdən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru S.Hüseynovanın hər iki metodla (ənənəvi və fəal təlim) apardığı tədris işi xüsusi maraq doğurdu. Adyunktura və elm şöbəsinin əməkdaşlarının göstərdikləri metodik köməklik nəticəsində kursantlarda tədris olunan fənnə dərin marağın şahidi olduq. Eyni zamanda, Silahlı Qüvvələrin Hərbi Akademiyasında Adyunktura və elm şöbəsinin əməkdaşlarının rəhbərliyi ilə müasir təlim texnologiyalarından yararlanmaqla təşkil edilmiş nümunəvi dərs də professor-müəllim heyəti və dinləyicilər tərəfindən maraqla qarşılanıb. Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyevin də iştirak etdiyi bu dərsdən sonra bütün professor-müəllim heyəti cəlb edilməklə, keçirilmiş məşğələnin müzakirəsi aparılmış, professor-müəllim heyətinə gələcəkdə müasir təlim texnologiyalarının tətbiqi ilə dərslərin keçirilməsinə dair tövsiyələrini vermişlər.

Müasir dərsin hər bir mərhələsi (motivasiya; problemin qoyulması, tədqiqatın aparılması, informasiya mübadiləsi, informasiyanın müzakirəsi və təşkili, nəticə, ümumiləşdirmə, yaradıcı tətbiqetmə, qiymətləndirmə və ya refleksiya) pedaqoji prosesdə reallaşmalıdır.

Aparılan müşahidələr göstərir ki, müasir dərsin mərhələləri üzrə həyata keçirilən fəaliyyətlərin icrasında mərhələlərin mahiyyətini bilən, anlayan, təhlil, təşkil etmək və qiymətləndirməkdə səriştə və peşəkarlığı olan müəllimlər çətinliklə üzləşmirlər.

Müasir dərsdə motivasiya, problemin qoyulması mərhələsində nələr ehtiva olunur? Tədris olunan mövzu ilə əlaqədar tədqiqata başlayarkən müvafiq bir problem ortaya qoyulmalıdır. Problem öz növbəsində çoxsaylı fərziyələr, ehtimallar doğurur. Bunları yoxlamaq üçün tədqiqat sualı formalaşdırılmalıdır. Düzgün müəyyən olunan tədqiqat sualı öyrənənləri yeni biliklərin kəşfinə aparan bələdçi rolunu oynayır. Dərsin bu mərhələsini motivasiya adlandırmaq təsadüfi xarakter daşımır. Motivasiya psixoloji amil olub hər hansı fəaliyyətin mexanizmini hərəkətə gətirən qüvvədir. Fəal dərsdə təfəkkür prosesini inkişaf etdirən və öyrənənlərin (kursantların) idrak fəallığını artıran problemin həlli prosesində düşünmə qabiliyyətinin sərbəstliyi təmin olunur.

Hərbi təhsildə təlim prosesi, əsl vətəndaşa xas olan ideyalar kursantlara inam, əqidə və s. keyfiyyətlərin aşılanmasına kömək edir.

Bu məqsədlə dərsdə təlim prosesi elə qurulmalıdır ki, kursantlar bu ideyaları daxilən dərk edib, emosional əhval-ruhiyyənin dərindən duymuş olsunlar.

Müasir dərsdə konstruktiv təlimin təmin olunması son dərəcə vacibdir. Konstruktiv təlim mahiyyətinə görə, kursantı inkişafa istiqamətləndirir, ona dərsdə və sosial mühitdə öyrəndiyi və öyrənəcəyi bilikləri əsaslandırmağa və yeni, yüksək keyfiyyətli bilik qazanmağa şərait yaradır.

Konstruktiv təlimin iki əsas məqsədi (kursantın əxlaqını saflaşdırmaq; özünü inkişaf etdirərək bilik qazanmaq) diqqətdə saxlanılır. Birinci məqsəd kursantın bir şəxsiyyət və vətəndaş kimi özünü dərk edərək, əxlaqını saflaşdıraraq inkişafına yönəlir. Layihələndirilən hər bir dərsin məqsədində yer alan kursantın tərbiyələndirilməsi texnologiyası onun mənəviyyatının saflaşdırılmasına xidmət etməlidir. Bu işdə böyük filosof Nəsrəddin Tusinin "Əxlaqi Nasiri" əsərini metodoloji mənbə kimi dəyərləndirmək lazımdır.

Dərsə verilən ümumi tələblər, didaktik prinsiplər (həyatla əlaqə, elmlilik, sistematiklik, şüurluluq və fəallıq, əyanilik, müvafiqlik, fərdi yanaşma və s.) kompleks şəkildə həyata keçirilməlidir. Ümumi tələblərdən fərqli olaraq xüsusi tələblər də əsasən dərslə bağlıdır. Onların aşağıdakı qruplara bölünməsi barədə müəllim zəruri bilik və bacarıqlara malik olmalıdır:

- Dərsdə yüksək təhsil, inkişaf və tərbiyə səmərəsi qazanılmalıdır. Yaxşı dərs kursantlar tərəfindən proqram materialının mənimsənilməsi, onların müəyyən ideya-mənəvi keyfiyyətlərə və zehni qabiliyyətə yiyələnməsi ilə şərtlənir.

- Dərsdə təlim materialının optimal məzmunu müəyyən edilməlidir. Müəllim dərsin qarşısında duran məqsəd və vəzifələrindən, kursantların hazırlıq səviyyəsindən asılı olaraq öyrənilən materialın həcmini, çətinlik dərəcəsini, fənlərarası əlaqə imkanlarını müəyyənləşdirməli və məzmunun mənimsənilməsinə nail olmalıdır.

- Dərsdə səmərəli metodik variant seçilib tətbiq edilməlidir. Dərs o zaman keyfiyyətli olar ki, müəllim kursantları fəal axtarışlara ruhlandırsın, onların müstəqil fikrini oyatsın.

Kursant "zənnimcə", "mənə belə gəlir ki", "mən belə hesab edirəm ki" sözlərindən istifadə etməklə fikrini ifadə etməlidir.

Tədqiqatın aparılması mərhələsində irəli sürülən fərziyyələri təsdiq və ya təkzib edən, eləcə də qoyulan tədqiqat sualına cavab verməyə kömək edə biləcək faktları tapmaq zərurəti yaranır. Yeni faktların öyrənilməsi və qoyulan suallara cavabların tapılması zamanı düşünmək və yeni biliklər kəşf etmək üçün əlverişli imkan yaranır. Tədqiqat müxtəlif formalarda (bütün siniflə, kiçik qruplarda, yaxud fərdi şəkildə) aparıla bilər.

İnformasiya mübadiləsi mərhələsində qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Təqdimat yeni biliklərin dairəsini cızır, natamam və xaotik xarakter daşıyaraq həmin bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən bir nəticəyə gəlmək üçün dəqiq cavab tapmaq zərurəti yaradır.

İnformasiyanın müzakirəsi və təşkili mərhələsi öz mürəkkəbliyi və zehni vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (məntiqi, tənqidi, yaradıcı) səfərbərliyi ilə şərtlənir. Müəllimin bələdçiliyi əsasında (yönəldici, köməkçi suallardan istifadə etməklə) qazanılmış faktların məqsədyönlü müzakirəsinə və təşkilinə köməklik göstərir.

Nəticə və ümumiləşdirmə mərhələsi kursantlara yeni biliyin kəşfi yolunda son addımı atmağa təminat verir. Öyrənən (kursant) əldə olunan bilikləri ümumiləşdirməli, gəldiyi nəticəni tədqiqat sualı ilə (bu nəticə suala cavab verirmi?) və irəli sürülmüş fərziyyələrlə (onların arasında düzgün olanı varmı?) müqayisə etməli olur.

Yaradıcı tətbiqetmə mərhələsində qazanılan yeni bilik möhkəmləndirilir, kursanta onun praktiki əhəmiyyəti göstərilir. Bələdçilik məqsədilə müəllim bu məqamda kursantlara təklif edə bilər ki, onlar müəyyən məsələlərin həllində və ya hər hansı müvafiq suallara cavab tapmaqda qazanılmış bilikləri tətbiq etməyə çalışsınlar.

Dərsin qiymətləndirmə (refleksiya) mərhələsi istənilən prosesin təkmilləşdirilməsini təmin edən mexanizmdir. Təkmilləşdirmək üçün vaxtında mövcud qüsur və nailiyyətləri aşkar etməklə yanaşı, uğurlara nələrin mane olduğunu və kömək etdiyini müəyyənləşdirmək mühüm əhəmiyyət kəsb edir. Kursantların təlim fəaliyyətinin qiymətləndirmə (refleksiya) prosesləri qeyd olunan məqsədə xidmət etməlidir.

Müasir dərsin xüsusiyyətlərini əks etdirən mərhələlərin ardıcıllıqla keçməsi prosesində kursantlar müstəqil təlim (öyrətməyi öyrənmək) və inkişaf vərdişlərinə yiyələnmək imkanı qazanır.

Dərs başa çatdıqdan sonra qazanılan bilik, bacarıq və vərdişlərin həyatla əlaqələndirilməsi kursantlar tərəfindən reallaşdırılmalıdır.

- Dərs təşkilati cəhətdən mütəşəkkil və çevik olmalı, yəni vaxtında başlanmalı, yüksək nəticə (intensivlik) əldə edilməlidir. Yaxşı dərs məntiqi və psixoloji cəhətdən tam olmalı (psixoloji tamlıq), dərsdə əks əlaqə yaradılmalıdır.

- Dərsdə əlverişli psixoloji iqlim, müsbət emosional vəziyyət yaradılmalıdır.

Qeyd olunan tələblərə cavab verən hər bir dərs hərbi təhsildə yüksək təlim nəticələrinin qazanılmasını təmin edəcəkdir.

# Xəbərlər: hadisələr, faktlar

## Dronlar yük maşınlarını əvəz edəcək



Dünyada ildən-ilə maraqlı "ağıllı" qurğuların sayı artmaqdadır və robot texnikasının inkişafı ilə robotların daha da müasirləşməsi prosesi gedir.

İsveçli mühəndislər artıq 2020-ci ilə sürücüsüz və operatorsuz işləyən yük avtomobillərinin istehsalını planlaşdırırlar.

Layihəyə görə, avtomatlaşdırılmış "T-pod" avtomobilləri telemetrik ötürücülər, çoxsaylı kamera izləyiciləri və avtomatlaşdırılmış proqramı olan kompüter vasitəsilə işləyəcək. Həmçinin 18 ton yükdaşıma qabiliyyətinə malik avtomobillər xüsusi akkumulyatorla qidalanaraq, 200 kilometrədək məsafə qət edəcəklər.

## Çində daha bir avtomobil qəzasında 9 nəfər ölüb



İyulun 6-da Çində baş verən ikinci avtomobil qəzasında 9 nəfər həlak olub, 28 nəfər yaralanıb.

Yerli hakimiyyət orqanlarının məlumatına görə, Xebey vilayətində saat 16:00 radələrində yük və minik avtomobilləri turistləri daşıyan avtobusla toqquşub. Altı nəfər hadisə yerində, digər üç nəfər isə aldıqları zədələrdən daha sonra ölüb. Yaralılar yaxınlıqdakı xəstəxanalara yerləşdiriliblər.

Xatırladaq ki, iyulun 6-da Quandun vilayətində baş verən digər avtomobil qəzasında 19 nəfər həlak olub.

## Misirdə terror aktı nəticəsində 10 hərbçi həlak olub



Sinay yarmadasının şimalında səhər saatlarında terror hadisəsi baş verib. Hadisə nəticəsində 10 Misir hərbçisi həlak olub.

Hadisə ilə bağlı polisin verdiyi son məlumata görə, silahlılar Rafah şəhərinin Əl-Baras rayonunda hərbçilərə hücum ediblər. Hücum nəticəsində, həmçinin Misir xüsusi təyinatlı qüvvələrinin bir nəfər polkovnikinin də həlak olduğu bildirilir.

## Fransada bu ilin ötən dövründə 7 terror aktının qarşısı alınıb



Fransanın xüsusi xidmət orqanları fövqəladə vəziyyət rejimi sayəsində 2017-ci ilin əvvəlindən bəri 7 terror aktının qarşısını alıblar.

Bunu "CNews" telekanalının efirində çıxış edən Fransanın daxili işlər naziri Jerar Kollon bildirib.

Fransada fövqəladə vəziyyət rejimi 2015-ci ilin noyabr ayından tətbiq olunur. O, ümumilikdə 130 nəfərin həyatına son qoyan terror aktları seriyasından sonra qüvvəyə minib və sonradan vaxtı bir neçə dəfə uzadılıb.

Bu arada Fransa Prezidenti Emmanuel Makron fövqəladə vəziyyət rejimini 2017-ci ilin payızına qədər ləğv edəcəyini bildirib.

## Misir Silahlı Qüvvələri Sinay yarımadasının şimalında 40 terrorçunu məhv edib



Sinay yarımadasının şimalında Rafax şəhərində Misir hərbçilərinin bir neçə məntəqəsinə terrorçuların hücumu nəticəsində 40 terrorçu məhv edilib. Bu məlumatı Misir Silahlı Qüvvələrinin rəsmi nümayəndəsi Tamer al-Rifai verib. O qeyd edib ki, partlayıcı ilə doldurulmuş avtomobillər bu məntəqələrdən birinin yanında partlayıb. Ölən və yaralanan hərbi qulluqçuların sayı 26 nəfərdir.

**AZƏRTAC-ın materialları əsasında**

# Qaliblər mükafatlandırıldı

*Xəbər verdiyimiz kimi, bir müddət əvvəl Azərbaycan Həmkarlar İttifaqı İcraiyyə Komitəsinin hamiliyi ilə C.Naxçıvanski adına Hərbi Liseydə "Vətənə xidmət edirik" inşa müsabiqəsi, "Azərbaycan əsgəri" bədii qiraət müsabiqəsi, həmçinin bölüklər arasında Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə hərbiləşdirilmiş idman turniri keçirildi. Kursantlar müsabiqələrdə və turnirdə çox fəal iştirak etdilər.*



Bu günlərdə yarışların nəticələri elan edildi. Əvvəlcə inşa müsabiqələrinin qaliblərini oxuculara təqdim etmək istəyirik. 50-dən çox iştirakçının qatıldığı müsabiqədə kursant Sabir Abdullayev mövzunu daha geniş və yetərincə yazaraq birinci pilləyə yüksəlib. Kursant Məhsum Əliyev ikinci yerə çıxıb. Üçüncü yeri isə kursant Rüfət Abdullayev tutub. Kursant Oruc Bayramov isə yarışın dördüncüsü olub.

"Azərbaycan əsgəri" bədii qiraət müsabiqəsində kursant Anar Sadıqov daha yaxşı bacarıq nümayiş etdirərək yarışın birincisi olub. 2-ci yerin isə iki qalibi müəyyənləşib. Kursantlar Elvin Əlizadə və Rəhman Məhəmmədli ikinci yerdə qərarlaşıblar. 3-cü yerə isə kursantlardan Tapdıq Mansurov, Bəybala Rəsulov və Rövşən Abbasov çıxıblar.

Müsabiqə iştirakçılarından 6 nəfər kursant - Beyrək Qüliyev, Səyyad İsmayılzadə, Vaqif Şükürov, Mirağalar Bayramov, Abbas Adıgözəlov və Anar Ağazadə həvəsləndirici mükafata layiq görülüblər.

Bölüklər arasında Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş hərbiləşdirilmiş idman yarışında isə birinci yerə 9-cu bölük, 2-ci yerə 8-ci bölük, üçüncü yerə isə 7-ci bölük çıxıb. Mərhələlərdə isə kursantlardan Kamil Şükürov, Seymur Sadaylı, Əfsər Şəfiyev və Elxan Salahov fərqlənmişlər.

Qalib kursantlar Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası tərəfindən mükafatlandırıldı. Kursantlara fəxri fərmanlar, qiymətli hədiyyələr təqdim olundu. İdman yarışının qalib komandasına isə kubok verildi.

Mərasimin sonunda C.Naxşıvanski adına Hərbi Liseyin şəxsi heyətlə iş üzrə rəis müavini polkovnik-leytenant Kamran Nəsibov qalibləri təbrik etdi, həmçinin Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının rəhbərliyinə yarışlara hamilik etdiyinə görə dərin minnətdarlığını bildirdi.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Hərbi ənənələr, yeniliklər



## Xüsusi təyinatlılar üçün qumbaraatan

Belarusun "Belspetsvneştexnika" müəssisəsində xüsusi təyinatlılar üçün 30 mm-li avtomat əl qumbaraatanı istehsal olunacaq. Yeni qumbaraatanın çəkisi 10 kiloqrama qədər təşkil edəcək və yüksək atəş gücünə malik olacaq. Onun hazırlanmasında Belarus mütəxəssisləri titan və kompozit materalından istifadə edəcəklər. Onların hesabına silahın çəkisi iki kiloqrama qədər azaldılacaq. Gecə vaxtlarında və çətin iqlim şəraitində atəş açmaq üçün teplovizion nişangahın, lazer hədəf göstəricisinin və optik nişangahın quraşdırılması da nəzərdə tutulub. Bu da 1200 metrlik məsafədən hədəfi məhv etməyə imkan verəcək. Müasir silahda AQS-17 avtomat dəzgah qumbaraatanının güclü döyüş sursatlarından istifadə ediləcək .

Yeni qumbaraatanın əsas xüsusiyyəti də onun əllə növbəli atəş açmasıdır. Qumbaraatan 6 atışlı maqazinlə və yaxud da 29 atışlı lentlə də komplektləşdirilə bilər. Həmçinin üç qumbaraatanlı maqazindən də istifadəsi nəzərdə tutulub.

## "Bumeranq" zirehli transportyoru



Rusiyanın "Hərbi-sənaye şirkəti" tərəfindən "Bumeranq" zirehli transportyoru hazırlanıb. Onun hazırlanmasında 40-dan çox qabaqcıl yerli şirkətlər iş aparıblar. Şirkət rəhbərinin məlumatına görə, müasir zirehli maşın yüksək manevrliyə, mühafizəyə və atəş gücünə malikdir. İlk dəfə zirehli maşının təqdimatı 2013-cü ildə keçirilib və seriyalarla istehsalının 2019-cu ildə həyata keçirilməsi planlaşdırılıb. Mənbələrdən verilən məlumata görə, müasir "Bumeranq" döyüş maşınının çəkisi 20 ton təşkil edəcək. Güclü zirehlənməsinə görə onun bəzi modellərinin çəkisinin 25 tona çatacağı nəzərdə tutulub. Düşmən atəşindən qorunmaq üçün maşının güc qurğusu qabaq hissədə, arxa hissəsində isə desantların yerləşdirilməsi üçün möhkəmlənmiş lyuk quraşdırılıb. Hazırda hər bir əsgər özündə daha çox silahlanma və zirehli jilet daşıdığına görə desant bölməsində onların rahat hərəkət etmələri üçün geniş yer ayrılıb. "Bumeranq"ın daha davamlı müdafiə olunması üçün onda keramik tərkibli çoxqatlı zirehdən isifadə edilib. Bu isə onun tankəleyhinə qumbaralardan və iriçaplı pulemyot atəşindən qorunmasına imkan verir. "Bumeranq" 30 mm-li 2A42 avtomat top, pulemyot və idarə olunan raketlərlə silahlanıb. Onun döyüş komplekti 500 mərmidən ibarətdir. Döyüş maşınından atəş komandir, eləcə də tuşlayıcı-operator tərəfindən açıla bilər. Döyüş komplekti etibarlı şəkildə desant hissəsindən və heyətdən təcrid edilib. Təqribi olaraq yeni döyüş maşınının mühərrikinin 600 at gücündə olacağı nəzərdə tutulub. Ənənəvi olaraq təkər formulası 8x8 götürülüb. Zirehli transportyor üzməyə də qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Yurd həsrəti

*(hekayə)*

**1993**-cü il dekabr ayının son günləri idi. Havaların soyuq keçməsi çadırda yaşayan qaçqınların dözülməz vəziyyətini daha da ağırlaşdırırdı.

Onlar hər açılan səhərə ümidlə baxırdılar. Adamlar tezliklə öz doğma el-obalarına qayıtdığı günün yaxınlaşmasını hiss edirdi. Əsgərlərimizin mətinliyi, keçirdiyi döyüş əməliyyatları bu inamı daha da artırırdı.

Çadır şəhərciyindəki uşaqların tez-tez dava-dava oyunları bir yandan onları kövrəldir, bir yandan fərəhləndirirdi. Hamı cəbhədən sevindirici xəbərlər gözləyirdi.

Mədinə ana həyat yoldaşını və 3 oğlunu Qarabağ müharibəsində itirmişdi. Dərdini həmişə gizlətməyə çalışırdı. Yeganə təsellisini çadırlarda yaşayan uşaqlardan və sonbeşiyi Kərimdən alırdı. Mehrini ona salmışdı.

Gözəl, ucaboy, yaraşıqlı Kərim elə bil ki, günbəgün böyüyürdü. Hələ 15 yaşı da tamam deyildi. Bir suyu atasına oxşayırdı.

Mədinə ana ürəyində: - Müharibə illərinin uşaqları necə də tez böyüyür, - deyib kövrəlirdi.

Mədinə ana axşam yeməyi hazırlamışdı. Qaranlıq çoxdan düşsə də Kərim hələ gəlməmişdi. Narahat idi: "Görəsən, bu harda qaldı, haralara getdi?" Dözməyib, qonşulardan soruşmaq istəyirdi ki, Kərimin səsini eşitdi.

Ana kövrəlib oğlunu bağrına basdı.

- Ana, narahat olma! Mən artıq balaca deyiləm ki? Çörək yeməmisən?

- Gözümün işığı, sənsiz mənim boğazımdan yemək keçərmi?

- Əsgərlərin yanına getmişdim.

- Necə, necə?

- Heç nədən qorxma. Mən artıq böyümüşəm. Atamın, qardaşlarımın qisasını almalıyam, ana! Müharibə tezliklə qurtaracaq... Bəs mənim qisasım? Ala bilməsəm sənin üzünə necə baxaram? Bir oğul kimi...

Ana oğlunun sözlərindən sevinsə də, onu bir təhər dilə tutmağa çalışdı. Mümkün olmadı. Kərim inadından dönmədi ki, dönmədi.

- Ana, söz ver ki, məndən sonra ağlamayacaqsan...

- Bəs mən burda tənha necə yaşayım?

- Tənha niyə, ay ana! Tez-tez məktub yazacam.

Ana həmişə ölümə qarşıdır. O bilir ki, ölüm insanlara nə dərdlər gətirir. Lakin oğlunun belə qeyrətlə danışmağı ananı az da olsa sakitləşdirdi. Bir anlığa murdar ermənilərin torpağımızda törətdiyi vəhşiliklər gözünün önündən keçdi... Səhərə kimi gözlərini yuma bilmədi. Ana öz oğluna xeyir-dua verib, müharibəyə yola salacaqdı. Kərimin yoldaşları da ona qoşulmuşdu.

...Ana Kərimin də, dostlarının da alnından öpüb, bağrına basdı.

- Gedin, əzizlərim, qoruyun Vətəni, qoruyun! Ox sancın düşmənin bağrına! Qırın onları, bütün qüvvənizlə qırın, kökünü kəsin, murdarların. Allah sizə yar olsun, balalarım!

- Salamat qalın, ana!

Günlər, aylar keçir, Mədinə ana özünə yer tapa bilmirdi. Hərdən özünü o ki var danlayırdı. Başına gələn faciələr onu əldən salsa da, yenə boş oturmur, əsgərlərə corab, əlcək toxuyurdu.

Günlərin bir günü Kərimdən məktub gəldi. Ananın sevinci yerə-göyə sığmadı.

Kərim məktubu öz doğma kəndlərindən yazmışdı: "Ana, indi mən öz kəndimizdəyəm. Ermənilər evimizin əşyalarını, tavanını, daşını söküb aparıblar. Canın sağ olsun, nə edək. Gələndən bəri təkcə mən neçə-neçə erməni öldürmüşəm. İndi mənə fərəhlə oğul deyə bilərsən. Məndən narahat olma! Biz hökmən, torpaqlarımızın hamısını tezliklə düşmən tapdağından azad edəcəyik, hamı kimi biz də yeni ev tikəcəyik. Özündən muğayat ol. Öpürəm".

**Sakit CƏFƏROV**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 305
Nüsxə 4600